# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 177 (1305) 24 sentyabr - 26 sentyabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# "İÇƏRİBAZAR"IN PAYIZI

### *Onun adı? Vətən və xalq sevdalısı*

**... Müdrik insan o gözəl məkana gedərkən sanki qeyri-adi bir hissin təsiri ilə yol kənarındakı fasadının rəngi qırmızıya çalan uzunsov binanın qarşısında dayanıb fikrə getdi. Xəyal onu ömrünün gənclik çağlarına apardı. Sürücü maşından düşüb arxa oturacağın qapısını açarkən ona "sən burda gözlə" deyib asta addımlarla binaya daxil oldu. Otaqlardakı idarə işçilərinin başları qarışıq olduğundan onun gəlişini hiss etmədilər. Həm də belə bir gəliş bir qədər inanılmaz idi. Müdirin qəbul otağında əyləşən qadın onu görüb əvvəlcə gözlərinə inanmadı, "Sizsizzz?.." deyərək çaşqın halda nə edəcəyini bilmədi.**

Müdrik insan gülümsəyərək özünün örnək xarakteri - ən yüksək təmkin və sadəliyi ilə qəfil gəlişini adiləşdirdi, rahat bir aura yaratdı. Müdir iş üstünə çıxmışdı, yəqin eşidib tezliklə qayıdacaqdı. O kabinetə keçib bir zamanlar özünün başdakı masanın arxasında tək stulunda deyil, yan tərəfdəki stulların birində əyləşdi. Müdrik insan düşüncələrə daldı. O vaxtlardan düz 40 il keçirdi. İlk gənclik illərindən üzü bu yana həmişə rəhbər işlərdə, böyük vəzifələrdə çalışmış bu fədakar insan indinin özündə də Prezidentin komandasında strateji bir quruma rəhbərlik edirdi. Ömrü boyu vətənin və xalqın xidmətində dayanmaq, ölkə rəhbərliyinin etimadını qazanmaq... İllər nə tez ötüb keçdi, buralar nə çox dəyişdi belə? Bu düşüncələrlə dönüb qarşı dağlara, meşələrə baxdı, yaxınlıqdan qıvrılıb keçən Kümrüyün doğma səsini eşitdi. Bunlar dəyişməmişdi, təbiət əbədiyyət fəlsəfəsinin nədən ibarət olduğunu sanki bir daha xatırladırdı.

Bütün bunlar sonbaharda daha ecazkar görünür.

Bura onun doğulub boya-başa çatdığı doğma yerlərdir.

O, bu elin, bu bölgənin yetişdirdiyi və fəxr etdiyi böyük şəxsiyyətlərdən biridir.

O, bu dünyaya xeyirxah bir missiya ilə gəlib. O, yaxşıları həmişə dəyərləndirib, gözəl əməllərin vurğunu olub. Həyat onu o qədər müdrikləşdirib ki, xarakterində, davranışlarında xoşagəlməz, pis xüsusiyyətlər gördüyü insanlar da bağışlaya bilir, onlara şans verir, onları xarakter deformasiyasından azad olmağa çağırır - həmişə yaxşı sonluğa inanır.

Onun yolu indi də "İçəribazar"adı. O bu unikal abidənin yenidən qurulmasının ideya müəllifi, cənab prezidentin bəyənib təqdir etdiyi, şəhər içində "şəhər"in böyük bir sevgiylə süslənən sanki filosof-memarıdı. O, həm də yaxşı bilirdi ki, İpək Yolunun qovşağı sayılan Qaxda, Alazan çayı vadisində çox qədimlərdən yurd-yuva yeri olan Minbərək, Torpaqqala, V-VI əsrlərdə iri ticarət şəhərləri olan Ləkit və Qum Qax ərazisində qərblə şərqin, cənubla şimalın karvan yollarının keçidi, həm də bu yerlərdə qalıb ixrac və idxal ticarəti ilə məşğul olan tacirlərin fəaliyyət meydanı olmuşdur. Bu baxımdan daha çox mətləblərə, bilgilərə işıq tuta biləsi "İçəribazar"ın yeni dönəmi, abidə təcəssümü olduqca vacib və əhəmiyyətli bir missiyadır ki, bunu da müdrik insan öz üzərinə götürməyi ən azından vətəndaş borcu bilmişdir.

"İçəribazar"ın tarixi ənənələr üzərində yenidən qurulması Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin də diqqət mərkəzində olmuşdur. O, Qax rayonuna səfəri zamanı bu unikal abidənin hər bir guşəsini gəzmiş, bu yerlərdən böyük zövq aldığını bildirmişdir. Qaxlılar həmin anları həmişə sevinclə xatırlayırlar. Rayon icra hakimiyyətinin başçısı Musa Şəkiliyevlə hər görüşümüzdə həmin mövzu yeni-yeni söhbətlərə stimul yaradır. Cənab Prezidentin səfəri zamanı ayrıca olaraq "İçəribazar" təəssüratları tarixi abidələrimizə münasibət baxımından ciddi dönüş yaratmışdır.



### *Prezident "İçəribazar"ın bərpasına yüksək dəyər vermişdir*

Bölgəyə səfəri zamanı Prezident İlham Əliyev Qax şəhərindəki "İçəribazar" qala kompleksində tikinti və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.

Bildirildi ki, Qaxda XVI əsrdən mövcud olan "İçəribazar" qala qapıları və divarları maddi-mədəniyyət abidəsinin yenidən qurulması tarixi irsimizin qorunması istiqamətində hazırda ölkəmizin bütün bölgələrində həyata keçirilən tədbirlərin bariz nümunəsidir. Aparılan tikinti və yenidənqurma işlərindən sonra "İçəribazar" qala kompleksi müasir və füsunkar görkəm almışdır. Burda əsrlərdən bəri qorunub saxlanılan bir çox maddi-mədəniyyət abidələri müasir Qax şəhərinin bir hissəsi olmaqla yanaşı, onun tarixinə verilən dəyəri də nümayiş etdirir.

Bildirildi ki, görkəmli bəstəkar, ictimai xadim Müslüm Maqomayevin atası usta Məhəmməd kişinin dəmirçi emalatxanası 1880-ci illərdə burada yerləşmişdir. 1902-ci ildə Qori seminariyasında təhsil alarkən Müslüm Maqomayev dahi bəstəkar Üzeyir Hacıbəyli ilə burada olmuşlar. Milli memarlıq üslubunda çapma daş və qırmızı kərpiclə nəfis şəkildə istənilən, dekorativ suvaq vurulan küçə divarları da insanda xoş ovqat yaradır. Qalanın giriş və çıxış qapıları da ölkəmizin memarlıq ənənələrinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. Kompleksdə yerli əhalinin, turistlərin istirahəti üçün hər cür şərait yaradılmışdır.

Azərbaycan Prezidenti Qaxın baş planı, şəhərin qədim hissəsinin bərpasını, perspektiv planını və yeni küçələrin abadlaşdırılmasını əks etdirən stendlərə baxmışdır.

"İçəribazar" qala kompleksində fəaliyyət göstərən tətbiqi sənət, ağacoyma, toxuculuq, Şərq şirniyyatı və təndirxana otaqları ilə tanış olan dövlət başçısı Qax rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə demişdir:

- Sizi ürəkdən salamlayıram. Qaxda yenidən olmağımdan çox şadam, çox məmnunam. Bildiyiniz kimi, bu, Qaxa mənim birinci səfərim deyil. Hər dəfə Qaxda olanda, yenilikləri görəndə çox sevinirəm. Rayon inkişaf edir, gözəlləşir, belə gözəl memarlıq əsərləri yaradılır. Deyə bilərəm ki, müasir Azərbaycanda belə gözəl guşələrin yaradılması yəqin ki, Qaxdan başlayır.

Bizim tarixi bölgələrimiz çoxdur, bu cür gözəl tarixi binalarımız da, abidələrimiz də vardır. Ancaq tarixi binaları bu səviyyədə bərpa etmək üçün əlbəttə ki, böyük səylər göstərilmişdir. Bu kiçik qəsəbə böyük məhəbbətlə, zövqlə və tarixi həqiqəti saxlamaq şərtilə yaradılmışdır. Əslində burada gördüklərimiz qədim tarixdən bizə miras qalan əsərlərdir. Ancaq bax bu gözəl binaları bu səviyyədə bərpa etmək, burada, sözün əsl mənasında, turizm mərkəzini yaratmaq böyük peşəkarlıq və məharət tələb edirdi. Mən çox şadam ki, Qaxın tarixi simasını əks etdirən bu kiçik guşə artıq fəaliyyətə başlayıb. Burada sənətkarlar öz sənətlərini təqdim edirlər, açıq səma altında gözəl səhnə yaradılıbdır. Bir sözlə, belə guşələr Azərbaycanda daha da çox olmalıdır.



> **"...Qaxın çox gözəl təbiəti, gözəl iqlimi vardır. Əlbəttə ki, bunlar turizmin inkişafı üçün böyük potensialdır. Bütün bu şimal-qərb zonasının turizm imkanları çox genişdir. Əminəm ki, gələcəkdə bu istiqamətdə daha da böyük işlər görüləcəkdir".**
>
> *Azərbaycan Respublikasının Prezidenti*
> *İlham Əliyev*

Çünki bir daha demək istəyirəm ki, bizim çox zəngin tariximiz, abidələrimiz vardır. Onların hamısı bərpa olunmalıdır. Həm Bakıda, həm bütün bölgələrdə. Tarixi abidələr baxımından Azərbaycan çox zəngin dövlətdir. Biz bu abidələri qorumalıyıq, bərpa etməliyik və xüsusilə ölkəmizin tarixi yerlərində qədim üsluba üstünlük verməliyik. İndi Qaxda çoxsaylı yeni binalar tikilir və tikiləcəkdir. Bu binalar da Qaxa xas olan üslubda tikilməlidir. Mən bunu alqışlayıram. Azərbaycanın bölgələri öz müxtəlifliyi ilə fərqlənir, seçilir. Hər bir bölgədə, hər bir rayon üçün ayrıca bir şəhərsalma inkişaf planı hazırlanmalıdır. Bəzi yerlərdə artıq işlər başlamışdır, bəzi yerlərdə yaxın zamanlarda başlanacaqdır. Əlbəttə ki, bu gözəl yerlər turistləri cəlb edəcəkdir. Bu bölgənin inkişafı daha çox turizmlə bağlı olacaq və Azərbaycan bu məsələlərlə çox ciddi məşğuldur. Paytaxtda, bölgələrdə gözəl mehmanxanalar açılıb. O cümlədən Qaxda yeni mehmanxananın açılışında da iştirak etmişəm. Deyə bilərəm ki, ən inkişaf etmiş ölkələrdə olan şəraitlə bu mehmanxanadakı şərait arasında heç bir fərq yoxdur. Bu, onu göstərir ki, investorlar Azərbaycanın gələcəyinə inanır. Baxmayaraq ki, Qax paytaxtdan uzaqda yerləşir, indi tikilən və gələcəkdə tikiləcək yollar, aeroportlar Qaxı paytaxt ilə birləşdirir. Bir də ki, burada yaradılan şərait, bütün bu gözəl təbiət bizi ruhlandırır. Ancaq əgər şərait yaradılmasa heç kim gəlməz, nə ölkə daxilindən, nə də ki, xaricdən. Gözəl təbiət və təbii şərait böyük üstünlüyümüzdür, xüsusilə Qax kimi mənzərəli yerlərdə. Ancaq burada yaradılan infrastruktur, xidmət obyektləri də bu təbiətə uyğun olmalıdır və mən bunu görürəm. Bir daha demək istəyirəm ki, mən artıq bir neçə dəfə burada olmuşam və hər dəfə Qaxda olanda, yenilikləri görəndə çox sevinirəm. Turizm obyektləri ilə bərabər, rayonun gündəlik problemləri də həllini tapır. Bildiyiniz kimi, indi bütün infrastruktur layihələrinin icrası üçün konkret işlər görülür. Həyat yerində durmur. Azərbaycan inkişaf edir və çox uğurla inkişaf edir.

Mən bir daha sizi ürəkdən salamlayıram, sizi alqışlayıram. Burada gördüyüm mənzərə əlbəttə ki, rayon rəhbərliyi tərəfindən icra edilir. Bu təşəbbüsü rəhbərlik irəli sürmüşdür, ancaq bilirəm ki, qaxlılar bu işlərdə böyük fəallıqla iştirak etmişlər, mən əlbəttə əminəm ki, biz hamımız indi sevinirik, fəxr edirik ki, belə gözəl tarixi diyarda belə gözəl əsərlər yaradılıb.

Sizə yeni uğurlar arzulayıram...

***Məzahir ƏHMƏDZADƏ***